

# ŞƏRQ qapısı


*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 99 (23.986)

*28 may 2022-ci il, şənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

Mayın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Zəngilan rayonunda intensiv meyvə bağı ilə tanış olublar. Dövlətimizin başçısına və birinci xanıma intensiv meyvə bağında görülən işlər barədə məlumat verilib.

Zəngilan rayonunun Ağalı kəndində "Ağıllı kənd" layihəsinin birinci mərhələsi üzrə açılış mərasimi olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər və burada yaradılan şəraitlə tanış olublar. Sakinlər ilə görüş zamanı Azərbaycan Prezidenti İlham Əliyev çıxış edib. Müstəqillik Günü münasibətilə təbriklərini çatdıran dövlətimizin başçısı deyib: "Bu gün hər bir Azərbaycan vətəndaşı və əminəm, hər bir insan, ümumiyyətlə, görür ki, bu gün Azərbaycanın dövlət müstəqilliyi möhkəmdir, əsaslıdır və xalqımızın xoşbəxtliyi üçün əsas amildir".

***

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sosial media hesablarında 28 May – Müstəqillik Günü münasibətilə paylaşım edib. Paylaşımdakı fotonun üzərində bu sözlər yer alıb: "Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır! Yaşasın güclü, müstəqil Azərbaycan!"



## Naxçıvanda 28 May – Müstəqillik Günü qeyd edilib





Mayın 27-də Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında Müstəqillik Gününə həsr olunmuş tədbir keçirilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Tədbirdə Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev çıxış edərək demişdir ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də "Müstəqillik Günü haqqında" Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Qeyd olunmuşdur ki, ötən əsrin 70-80-ci illərində ulu öndər Heydər Əliyev Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinə qovuşması istiqamətində mühüm işlər görmüş, tarixi-mədəni irsə və milli soykökə qayıdışın əsasını qoymuş, milli kadr hazırlığına başlanılmış, iqtisadi potensial formalaşdırılmışdır. Ümummilli liderimizin Naxçıvan Muxtar Respublikasında yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər isə dövlət müstəqilliyi üçün konkret tədbirlərin görüldüyü, mühüm tarixi qərarların qəbul edildiyi dövrdür. Xalq Cümhuriyyətinin qəbul etdiyi üçrəngli bayrağımız ilk dəfə 1990-cı ildə – ölkədə müstəqillik elan olunmamışdan bir il əvvəl Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından "Sovet Sosialist" sözləri götürülmüşdür. Bunun ardınca Sovet qoşun hissələri Naxçıvandan çıxarılmış, ilk milli sərhəd dəstəsi və ordu qurumu yaradılmış, kommunist partiyasının fəaliyyəti dayandırılmış, Azərbaycanın dünəninin, bu gününün və gələcəyinin təminatı olan Yeni Azərbaycan Partiyası təsis olunmuş, yeni istehsal münasibətlərinə əsaslanan təsərrüfatçılıq prinsiplərinin təməli qoyulmuş, ən əsası isə Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikası iştirak etməmişdi.



Ümummilli liderimiz deyirdi ki, ***"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi, əbədi olması bundan da çətindir".***

Bildirilmişdir ki, ulu öndər Naxçıvanda bu tədbirləri həyata keçirərkən ölkəmizdə bunun əksinə olaraq ictimai-siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi, qarşıdurma, hakimiyyət uğrunda mübarizələr hökm sürür, torpaqlarımız işğal olunurdu. Belə bir dövrdə – 1993-cü ilin 15 iyununda xalqın tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli liderimiz Azərbaycanı Milli Qurtuluşa qovuşdurmuş, ölkə işğaldan, müstəqilliyimiz isə itirilmək təhlükəsindən xilas edilmişdir. 2003-cü ildən etibarən ölkə Prezidenti ulu öndərin yolunu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sülhün, sabitliyin və inkişafın təminatçısına çevirib. Bu gün müstəqil Azərbaycan Respublikası dünya birliyində öz layiqli yerini tutur. 44 günlük Vətən müharibəsi ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsi müstəqillik tariximizin ən möhtəşəm nailiyyəti, ümummilli lider Heydər Əliyev siyasi xəttinin təntənəsidir.

Müstəqillik illərində muxtar respublikada ümumi daxili məhsul istehsalı 69, kənd təsərrüfatı məhsulları 15, sənaye istehsalının həcmi 117 dəfə artmış, 100 minə yaxın yeni iş yerləri açılmış, yaşayış məntəqələri böyümüş, 1 rayon, 4 qəsəbə və 2 şəhər yaranmışdır. Tikinti-quruculuq işləri geniş vüsət almış, 233 elm və təhsil ocağı, 364 mədəniyyət, 252 səhiyyə, 29 idman obyekti, 353 inzibati bina, 1346 istehsal və xidmət sahəsi tikilmiş, 1112 müxtəlif təyinatlı obyekt yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, bütün yaşayış məntəqələrini əhatə edən müasir yol-nəqliyyat və sosial infrastruktur istifadəyə verilmişdir. İsmayıl Hacıyev çıxışını Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ***"Bu gün Azərbaycanda müstəqilliyin, dövlətçiliyin və inkişafın yolu ulu öndərin siyasi xəttindən keçir"*** fikirləri ilə tamamlamışdır.

Sonra Naxçıvan Dövlət Universiteti Simfonik Orkestrinin konserti başlamışdır.

Azərbaycan Respublikasının Xalq artisti Çingiz Axundovun dirijorluğu ilə keçirilən konsertdə görkəmli bəstəkarlardan Üzeyir Hacıbəyovun, Müslüm Maqomayevin, Qara Qarayevin, Fikrət Əmirovun, Ramiz Mirişlinin, Asəf Zeynallının, Eldar Mansurovun və digərlərinin əsərləri, eləcə də xalq mahnıları ifa olunmuşdur. Azərbaycan Respublikasının Əməkdar artistləri Tural Nəcəfovun, Gülyanaq Fərzəliyevanın və Mübariz Əsgərovun, Naxçıvan Muxtar Respublikasının Əməkdar artistləri Ruhiyyə Hüseynovanın və Azər Cəfərovun, tələbələrdən İsrafil Qibləliyevin çıxışları, eləcə də konservatoriyanın yallı qrupunun ifasında "Köçəri" yallısı alqışlarla qarşılanmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək Naxçıvan Dövlət Universiteti Simfonik Orkestrinin üzvləri ilə görüşmüş, onlara uğurlu konsert proqramına görə təşəkkür etmiş, Müstəqillik Günü münasibətilə təbriklərini çatdıraraq demişdir: Simfonik orkestrin üzvləri müstəqillik dövrünün yetirmələridir. Konsert 1995-2000-ci illəri xatırlatdı. Naxçıvanda həmin dövrdə musiqi məktəblərinin fəaliyyəti və musiqi tədrisi tələb olunan səviyyədə deyildi. Ona görə də bu sahədə işlərə başlanıldı. Naxçıvan Dövlət Universitetində konservatoriya yaradıldı, musiqi təhsili sahəsində mühüm işlər görüldü. Nəticədə, Naxçıvan Dövlət Universitetinin və tabeliyinə verilən Musiqi Kollecinin birgə simfonik orkestri yarandı.

"Mədəniyyət hər bir ölkənin inkişafının göstəricisidir", – deyən Ali Məclisin Sədri bildirmişdir ki, musiqi kollektivləri də mədəniyyətin daşıyıcıları olaraq ölkəmizi musiqi və mədəniyyət sahəsində təmsil edir, tanıdırlar. Ona görə simfonik orkestrin bugünkü çıxışı onu deməyə əsas verir ki, kollektiv qarşıya qoyulan vəzifələri uğurla yerinə yetirəcəkdir.

Ali Məclisin Sədri bütün bunların yaradılan şəraitdən səmərəli istifadə nəticəsində mümkün olduğunu bildirmiş, kollektivə uğurlar arzulamışdır.

*Ardı 2-ci səhifədə*

# Miniatür Kitab Muzeyi və Naxçıvan Dövlət Rəsm Qalereyası yenidən qurulub



Həmin gün Ali Məclisin Sədri Heydər Əliyev Sarayında yerləşən Miniatür Kitab Muzeyinə və Naxçıvan Dövlət Rəsm Qalereyasına baxmışdır.

Bildirilmişdir ki, Miniatür Kitab Muzeyində 1025 miniatür kitab, foto və diplomlar nümayiş etdirilir. Muzeydə ümummilli lider Heydər Əliyevin və ölkə Prezidenti cənab İlham Əliyevin fəaliyyətlərini əks etdirən, o cümlədən müstəqil Azərbaycanın daxili və xarici siyasətində mühüm tarixi hadisələr haqqında kitablar yer alır.

Ali Məclisin Sədri miniatür kitabların çapı barədə tapşırıqlar vermişdir.

Ali Məclisin Sədri Naxçıvan Dövlət Rəsm Qalereyasındakı əsərlərə də baxmışdır.

Məlumat verilmişdir ki, qalereyada yerli və xarici rəssamların 59 rəsm əsəri sərgilənir. Ekspozisiya zalında natürmort, portret, peyzaj, qrafika, abstrakt və digər janrlarda çəkilmiş əsərlər nümayiş olunur. Xalq rəssamlarından Mikayıl Abdullayevin, Maral Rəhmanzadənin, Hüseyn Əliyevin, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyevanın, Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovun və digərlərinin əsərləri Naxçıvan rəssamlıq məktəbinin zəngin ənənələrini əks etdirir.

Ali Məclisin Sədri qalereyanın yeni əsərlərlə zənginləşdirilməsi barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**



*28 May Müstəqillik Günüdür*

# Müstəqillik ən böyük sərvətimizdir

*1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin Milli Şurası İstiqlal Bəyannaməsini imzalamaqla Azərbaycanın müstəqilliyini dünyaya bəyan etmiş, xalqımızın çoxəsrlik dövlətçilik ənənələrini davam etdirmişdir. Qısa dövr ərzində Azərbaycanın ilk parlamenti, hökuməti yaradılmış, dövlət atributları təsis olunmuş, sərhədləri müəyyən edilmiş, dövlət quruculuğu sahəsində mühüm tədbirlər həyata keçirilmişdir. Cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti müsəlman Şərqində demokratiya ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir.*

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev 2021-ci il oktyabrın 15-də “Müstəqillik Günü haqqında” Azərbaycan Respublikası Qanununu təsdiq etmiş, həmin Qanuna əsasən mayın 28-i ölkəmizdə Müstəqillik Günü elan edilmişdir. Qanunda da qeyd olunduğu kimi, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyəti yaradılmış, 1991-ci il oktyabrın 18-də isə Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul olunmuş, bu zaman 1918-ci il 28 may tarixli İstiqlal Bəyannaməsinə istinad edilmişdir. Bu baxımdan ölkə Prezidentinin imzaladığı müvafiq qanunda 28 may tarixi mahiyyət və məzmununa uyğun olaraq dəqiq ifadə olunmuşdur.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev deyirdi: ***“Müstəqillik bir bayanatla olmur. Müstəqillik əməli işlə olur. Əməli iş də ondan ibarətdir ki, biz özümüz öz ölkəmizin, öz torpağımızın, millətimizin, taleyimizin sahibi olmalıyıq”.***

Azərbaycan Xalq Cümhuriyyəti 1920-ci ilin aprelində süqut etsə də, müstəqillik ideyaları xalqımızın yaddaşından heç vaxt silinmədi. Xalq özünün istiqlal arzularını nəsildən-nəslə ötürdü. 1970-1980-ci illərdə ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan sürətlə inkişaf etdi, həm iqtisadi, həm də sosial sahədə böyük uğurlar qazandı. Görkəmli dövlət xadiminin rəhbərliyi altında həyata keçirilmiş tədbirlər ölkəmizin müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratdı. Azərbaycan ötən əsrin sonlarında müstəqilliyini yenidən bərpa etdi. Lakin əsrin əvvəlində olduğu kimi, bu dəfə də erməni təcavüzü ilə üzləşərək torpaqlarının işğalı və müstəqilliyinin itirilməsi təhlükəsi ilə rastlaşdı. Tarixi hadisələr göstərir ki, Azərbaycan xalqı müstəqil dövlətini yaratmaq istəyəndə daim erməni faktoru ilə üzləşmiş, ölkəmizin müstəqil dövlət olmasını istəməyənlər “erməni məsələsi”ndən yetərincə istifadə etmişlər. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***“Bütün tarixboyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir”.***

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan mürəkkəb vəziyyətdə öz müstəqilliyini və suverenliyini qorumuş və möhkəmləndirmişdir. Ulu öndərin 1990-1993-cü illərdə Naxçıvanda yaşadığı illər müstəqilliyimizin möhkəmləndirilməsi, milli dövlətçilik ənənələrimizin qorunması və gücləndirilməsində müstəsna rol oynadı. Bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmiş ümummilli liderin sədrliyi ilə 1990-cı il noyabrın 17-də keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul olunmuş, üçrəngli bayrağımız Naxçıvan Muxtar Respublikası Ali Məclisində qaldırılmış, Naxçıvan SSRİ-nin saxlanması ilə bağlı keçirilən referendumda iştirak etməmiş, Naxçıvan Muxtar Respublikasının adından “Sovet Sosialist” sözləri götürülmüş, Sovet İttifaqının qorunub saxlanması ilə əlaqədar 1991-ci il martın 17-də keçirilən ümumittifaq referendumunda Naxçıvan Muxtar Respublikası iştirak etməmişdir.

Görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbindən sonra ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışı isə Azərbaycanı məhv olmaq təhlükəsindən xilas etmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmişdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“1993-cü il, əslində, real müstəqilliyimizin ilk ili olmuşdur. Məhz Heydər Əliyevin qətiyyəti, cəsarəti, təcrübəsi, dünyagörüşü və düşünülmüş siyasəti nəticəsində Azərbaycan o ağır vəziyyətdən çıxa bildi, sabitlik yarandı və inkişaf dövrü başlandı... Azərbaycanda demokratik təsisatlar məhz Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış və möhkəmləndirilmişdir... 1993-2003-cü illər tarixdə sabitlik, inkişaf illəri kimi qalacaqdır”.*** Ötən dövrdə Azərbaycan beynəlxalq hüququn subyekti kimi sübut etmişdir ki, o, Şərqdə və müsəlman aləmində ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin ləyaqətli varisidir, onun davamçısıdır və ənənələrinə sadiqdir.

Müstəqilliyimizin bizə verdiyi bəhrələr bu gün ölkəmizin bütün dünyada tanınmasına, qəbul olunmasına imkan vermişdir. İndi müstəqil Azərbaycan dövləti mühüm beynəlxalq tədbirlərə ev sahibliyi edir, öz milli, mədəni və multikultural dəyərləri ilə dünya ölkələri üçün əsl nümunəyə çevrilir. Ulu öndər Heydər Əliyev tərəfindən müəyyənləşdirilmiş siyasi xəttin uğurla davam etdirilməsi artıq Azərbaycanı regionun iqtisadi-siyasi, hərbi baxımdan ən güclü dövlətinə çevirmişdir. Elə bu gücün nəticəsidir ki, Azərbaycan 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün ərzində mənfur erməni ordusunu tamamilə darmadağın edərək illərdir, işğalda saxlanılan torpaqlarını azad etdi. Əgər ümummilli lider Heydər Əliyev 1993-cü ildə ali hakimiyyətə qayıdışı ilə Azərbaycanın müstəqilliyini parçalanmaqdan, məhv olmaqdan qoruyub xilas etdisə, cənab İlham Əliyev ölkəmizin ərazi bütövlüyünü bərpa edərək bu müstəqilliyin tamlığını təmin etdi. Ölkə başçısı demişdir: ***“Uzun illər ərzində Azərbaycanın hərtərəfli inkişafı üçün rəhbər tutulan strateji xəttin, ölkəmizin daha da güclənməsi üçün görülən fasiləsiz işlərin məntiqi nəticəsi isə tarixi ədalətin bərqərar olması – Vətənimizin ərazi bütövlüyünün təmin edilməsi olmuşdur. Rəşadətli Ordumuz döyüş meydanında həqiqi qəhrəmanlıq və vətənpərvərlik nümayiş etdirərək cəmi 44 gündə torpaqlarımızı işğaldan qurtarmışdır. Azərbaycan xalqının apardığı Vətən müharibəsi Ermənistanın kapitulyasiya aktını imzalaması ilə nəticələnmişdir. Azərbaycanın Vətən müharibəsindəki Zəfəri regionumuzda yeni reallıqlar yaratmışdır. Tarixi Qələbəmiz həm ölkəmizin, həm də bütövlükdə regionun inkişafında yeni dövrün başlanğıcıdır”.*** Qələbənin digər möhtəşəmliyi isə ölkəmizin əsas əraziləri ilə Naxçıvan arasındakı əlaqələrin bərpası olacaqdır.

Ötən əsrin sonlarından blokadaya alınan Naxçıvan bütün çətinliklərə baxmayaraq, müstəqillik illərində inkişaf etmiş, blokadada inkişafın yeni nümunəsini yaratmışdır. Bu dövrdə muxtar respublikada ümumi daxili məhsul istehsalı 69, kənd təsərrüfatı məhsulları 15, sənaye istehsalının həcmi 117 dəfə artmış, 100 minə yaxın yeni iş yerləri açılmış, yaşayış məntəqələri böyümüşdür. Tikinti-quruculuq işləri geniş vüsət almış, 233 elm və təhsil ocağı, 364 mədəniyyət, 252 səhiyyə, 29 idman obyekti, 353 inzibati bina, 109 körpü, 61 nasos stansiyası, 328 subartezian quyu, 1346 istehsal və xidmət sahəsi tikilmiş, 1112 müxtəlif təyinatlı obyekt yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, bütün yaşayış məntəqələrini əhatə edən müasir yol-nəqliyyat və sosial infrastruktur istifadəyə verilmişdir.

*Qalib, qüdrətli dövlət olan Azərbaycanın müstəqilliyi əbədidir. Ölkə Prezidentinin də dediyi kimi:* ***“Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də, belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir. Azərbaycanın müstəqilliyi əbədidir”.***

**“Şərq qapısı”**

# 28 May – Müstəqillik Günü münasibətilə tədbirlər keçirilmişdir



Şərur rayonunda yeni istifadəyə verilən Mədəniyyət Sarayında 28 May – Müstəqillik Günü ilə əlaqədar tədbir keçirilib. Çıxışda bildirilib ki, Müstəqillik Günü Azərbaycan xalqının tarixində ən şanlı və parlaq səhifələrdən biridir. Qeyd olunub ki, ulu öndər Heydər Əliyevin layiqli davamçısı, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə müəyyənləşdirilən və həyata keçirilən hərtərəfli düşünülmüş, balanslaşdırılmış xarici siyasət nəticəsində şanlı Azərbaycan Ordusu 44 gün davam edən Vətən müharibəsində işğalçı Ermənistan ordusunu darmadağın edərək tarixi zəfərə imza atmış və uzun müddət işğal altında olan torpaqlarımızı azad etmişdir. Bu, Azərbaycan xalqının böyük tarixi Qələbəsidir. Bununla Müstəqillik Günü ikiqat əlamətdar tarixi bayrama çevrilib. Tədbirin bədii hissəsində “Arpaçay” İnstrumental Ansamblının müşayiəti ilə musiqi nömrələri ifa edilib, muxtar respublikamızın mədəniyyət simvoluna çevrilən yallı qruplarının – balaca fidanlardan ibarət “Şərur qönçələri”nin, “Şərur” Xalq Yallı Ansamblının və ahıllardan ibarət “Nurani” kollektivinin çıxışları alqışlarla qarşılanıb.

* * *

Babək Rayon Mədəniyyət Sarayında 28 May – Müstəqillik Günü münasibətilə keçirilən tədbirdə aparıcılar bildiriblər ki, XX əsrin əvvəllərində demokratik dövlət quruculuğu istiqamətində atılan addımlar əsrin sonlarında müstəqillik üçün siyasi və tarixi əsas yaradıb. Bu tarixi varislik ənənələrinin yaşadıldığı və müstəqilliyin əsasının qoyulduğu ilk yer isə Naxçıvan Muxtar Respublikası olub. Görkəmli dövlət xadimi Heydər Əliyevin 1990-1993-cü illərdə muxtar respublikada yaşayıb fəaliyyət göstərməsi dövlətçiliyimizi və müstəqilliyimizi məhv olmaq təhlükəsindən xilas edib, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı ilk dəfə Naxçıvanda qaldırılıb. Ümummilli liderimizin 1990-1993-cü illərdə Naxçıvanda dövlət müstəqilliyimizin bərpası ilə bağlı qəbul etdiyi tarixi qərarlar Azərbaycan Xalq Cümhuriyyətinin varisi olan müasir Azərbaycanın dövlətçilik yoludur. Ölkə Prezidenti cənab İlham Əliyev isə bu yolu uğurla davam etdirərək Azərbaycanı regionun lider dövlətinə, sabitliyin və inkişafın təminatçısına çevirib. Müstəqilliyimiz möhkəmləndirilib, sosial-iqtisadi inkişaf təmin edilib, güclü ordu yaradılıb. 44 günlük Vətən müharibəsindəki tarixi Zəfər nəticəsində ölkəmizin ərazi bütövlüyü təmin olunub. Tədbir rayonun mədəniyyət kollektivlərinin ifasında konsert proqramı ilə davam edib.

* * *

Ordubad rayonunda keçirilən tədbirin

*Ardı 3-cü səhifədə*

aparıcıları milli istiqlal tariximizin şərəfli səhifəsi olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranma tarixindən, qısa vaxt ərzində həyata keçirdiyi islahatlardan, ölkənin demokratikləşməsi və insan hüquqları sahəsində atılan addımlardan, dövlətçiliyimizin möhkəmləndirilməsindən, müstəqil ölkəmizin uğurlarından, həmçinin demokratik cümhuriyyətin süqutu səbəblərindən danışıblar. Tədbir Ordubad Rayon Mədəniyyət Sarayının bədii özfəaliyyət kollektivlərinin konsert proqramı ilə davam etdirilib.

* * *

Culfa Rayon Mədəniyyət Sarayında 28 May – Müstəqillik Günü münasibətilə tədbir keçirilib. Tədbirin aparıcıları bildiriblər ki, Şərqin ilk parlamentli respublikası olan Azərbaycan Xalq Cümhuriyyəti zəngin dövlət quruculuğu təcrübəsi ilə Azərbaycanın milli dövlətçilik tarixində silinməz izlər qoyub. Bolşeviklər tərəfindən istila olunan Azərbaycan bir də 70 ildən sonra – 1991-ci il oktyabrın 18-də yenidən dövlət müstəqilliyini bərpa edib.



Süqut edən Xalq Cümhuriyyətinin üçrəngli bayrağını yenidən ucaldan və Azərbaycan xalqının əbədi müstəqilliyini təmin edən şəxsiyyət isə xalqımızın ümummilli lideri Heydər Əliyev oldu. Qürurvericidir ki, bu böyük missiyanı görkəmli dövlət xadimi Naxçıvanda həyata keçirib. Qeyd olunub ki, beynəlxalq aləmdə turizm, tolerantlıq diyarı, idman ölkəsi olmaqla yanaşı, eyni zamanda innovasiyalar və informasiya-kommunikasiya texnologiyaları ölkəsi kimi də tanınan Azərbaycan Müstəqillik Gününü öz ərazi bütövlüyünü təmin etmiş qalib dövlət kimi qeyd edir. Tədbirin bədii hissəsində rayon Mədəniyyət Sarayının "Çeşmə" İnstrumental Ansamblının ifasında konsert proqramı olub, xalq mahnıları səsləndirilib.

* * *

Kəngərli rayonunda 28 May – Müstəqillik Günü ilə bağlı Bayraq Meydanında keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Diqqətə çatdırılıb ki, Şərqdə ilk dəfə azad, demokratik, dünyəvi dəyərlərə söykənən müstəqil Azərbaycan Xalq Cümhuriyyətinin qurulması XX əsrdə xalqımızın həyatında yeni bir tarixi mərhələnin başlanğıcı olub. Xalqımız 70 il sonra yenidən öz müstəqilliyini bərpa etdi. Ulu öndər Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı ilə müstəqilliyimiz möhkəmləndirildi, əbədi və dönməz oldu. Qeyd edilib ki, bu gün ümummilli lider Heydər Əliyevin şah əsəri olan müstəqil Azərbaycanın taleyi etibarlı əllərdədir və qurulan möhkəm təməl, aparılan uğurlu siyasət müstəqilliyimizin sarsılmazlığına tam təminat verir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən demokratik, dünyəvi, hüquqi dövlət quruculuğu prosesi müstəqilliyimizin bəhrəsidir. Tədbirin sonunda məktəblilər vətənpərvərlik mövzusunda şeirləri bədii qiraət edib, Qıvraq qəsəbə uşaq bağçasının balaca fidanlarının təqdimatında "Bayraq" rəqsi ifa olunub.

* * *

Şahbuz rayonunda keçirilən tədbirdə aparıcılar Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti, onun yaranma tarixi və fəaliyyəti haqqında ətraflı məlumat veriblər. Qeyd olunub ki, görkəmli dövlət xadimi Heydər Əliyevin 1993-cü ildə ölkəmizdə siyasi hakimiyyətə qayıdışından sonra dövlət müstəqilliyimiz daha da möhkəmlənib. Ümummilli liderimiz Heydər Əliyevin müəyyənləşdirdiyi müasir Azərbaycanın dövlətçilik yolunu bu gün Prezident cənab İlham Əliyev uğurla davam etdirir. Müstəqilliyimiz möhkəmləndirilib, sosial-iqtisadi inkişaf təmin edilib, güclü ordu yaradılıb. 44 günlük Vətən müharibəsində torpaqlarımızın işğaldan azad olunması bunu bir daha təsdiq etdi. Tədbirin bədii hissəsində rayonun mədəniyyət kollektivlərinin ifasında konsert proqramı olub, xalq və bəstəkar mahnıları səsləndirilib.

* * *

Sədərək Rayon Mədəniyyət Sarayında 28 May – Müstəqillik Günü münasibətilə tədbir keçirilib. Tədbirin aparıcıları qeyd edib ki, bu il may ayının 28-də müsəlman Şərqində ilk parlamentli respublikanın – Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 104 ili tamam olur. 2018-ci ildə ölkə başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə həmin il ölkəmizdə "Cümhuriyyət ili" elan edildi və Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyi təntənə ilə qeyd olundu. 1991-ci il oktyabrın 18-də isə "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikasının dövlət müstəqilliyi bərpa edildi. Ulu öndərin layiqli davamçısı cənab İlham Əliyev müstəqillik yolu ilə irəliləyən Azərbaycanı daha böyük zirvələrə çatdırıb və ölkəmiz bütün dünyada güclü dövlət kimi tanınır. Bu gücün, qüdrətin nəticəsidir ki, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etdi. Güclü dövlətimizin düzgün siyasəti nəticəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız cəmi 44 gündə düşmən tapdağından azad edildi. Tədbir iştirakçılarına Mədəniyyət Sarayının kollektivi tərəfindən konsert proqramı təqdim olunub.

* * *

28 May – Müstəqillik Günü ilə əlaqədar muxtar respublikanın tibb müəssisələrində qanvermə aksiyası keçirilib. Aksiyanın əsas məqsədi insan sağlamlığının təmin edilməsi, aztəminatlı, eləcə də şəhid və qazi ailələrinə lazımi tibbi yardımın göstərilməsi olub.

Naxçıvan Diaqnostika Müalicə Mərkəzi və Babək Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxs tərəfindən Babək Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən aksiya çərçivəsində rayon İcra Hakimiyyətinin kollektivinin də yaxından iştirakı olmaqla, 60 nəfərdən 30 litr qan götürülüb. Eyni zamanda humanitar yardım məqsədilə 142 nəfərə terapevtik müayinə, 30 uşağa sünnət, 1 nəfərə kiçik cərrahi əməliyyat icra olunub.

Şahbuz Rayon Mərkəzi Xəstəxanasında təşkil edilən qanvermə aksiyasında Naxçıvan Muxtar Respublika Xəstəxanası publik hüquqi şəxs və Şahbuz Rayon Mərkəzi Xəstəxanası publik hüquqi şəxsin tibb işçiləri tərəfindən 50 nəfərdən 25 litr qan götürülüb, eyni zamanda terapevt, hemotoloq və laborator müayinələr icra olunub.

* * *

Naxçıvan Dövlət Universiteti Memarlıq və mühəndislik fakültəsində 28 May – Müstəqillik Gününə həsr olunan Memarlıq və Robotexnika üzrə sərgi keçirilib.

Universitetin rektoru Elbrus İsayev 28 May – Müstəqillik Günü münasibətilə kollektivi təbrik edib, müstəqilliyin bərpasından keçən dövr ərzində müasir Azərbaycanın əldə etdiyi nailiyyətlərdən, keçdiyi inkişaf yolundan söhbət açıb, fakültədə keçirilən bu cür sərgilərin xüsusi əhəmiyyətə malik olduğunu qeyd edib.

Sonra eskiz, memarlıq layihələri, xalçaçılıq ornamentlərinə dair əl işlərinin təqdim olunduğu sərgiyə baxış olub. Memarlıq ixtisasının tələbələri sərgidə müxtəlif maketlər də təqdim ediblər. Sərgiyə Robotexnika sahəsinə dair 20-yə yaxın iş təqdim olunub.

Sonda sərgidə iştirak edən müəllim və tələbələrə diplom verilib.

**Xəbərlər şöbəsi**

# Bir millətin iki dövlətini birləşdirən "Ümid" körpüsü



*30 il bundan əvvəl, 1992-ci il mayın 28-də Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində "Ümid" körpüsü açılıb. Bu tarix iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq baxımından mühüm əhəmiyyət daşıyır.*

Türk dünyası üçün strateji əhəmiyyət kəsb edən, Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən Naxçıvan tarixboyu düşmənlərin hədəfində olmuşdur. Ötən əsrin sonlarında ölkəmiz müstəqilliyini bərpa etdiyi bir vaxtda ermənilər məqsədli şəkildə Naxçıvanı blokadaya salıb, bu qədim Azərbaycan torpağını ələ keçirmək üçün yenidən məkrli planlar həyata keçirməyə başlamışdılar. Belə bir dövrdə ulu öndər Heydər Əliyevin Naxçıvana gəlməsi, burada yaşayıb siyasi fəaliyyət göstərməsi muxtar respublikanı işğaldan qorumuşdur. Ümummilli liderimizin bu məqsədlə həyata keçirdiyi tədbirlərdə dost və qardaş ölkə olan Türkiyə ilə əlaqələrin qurulmasının mühüm əhəmiyyəti olmuşdur.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasında əlaqələrin əsası isə 1992-ci ilin martında qoyulmuşdur. Həmin dövrdə Naxçıvanda ulu öndərin ***"Bir millət, iki dövlət"*** fikirlərinin reallığa çevrilməsi mərhələsi başlanmışdı. Ulu öndər Heydər Əliyevin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu" imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də iki ölkə arasında iqtisadi, mədəni, sosial, siyasi əlaqələrin inkişaf simvolu hesab olunan Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Həmin körpünün istifadəyə verilməsi ilə Naxçıvanda blokadanın ağır fəsadlarının tədricən aradan qaldırılmasına, əhalinin maddi rifah halının yaxşılaşdırılmasına, muxtar respublikanın dünyaya tanıdılmasına, Qərbə inteqrasiyasına başlanılmışdır. Eyni zamanda bu, Türkiyənin Şərq vilayətlərinin inkişafına təkan vermiş, nəqliyyat əlaqələrinin inkişafı və beynəlxalq daşımalar üçün yeni istiqamət müəyyənləşdirmişdir. Ümummilli liderimiz Heydər Əliyev körpünün açılması zərurətini belə xarakterizə etmişdir: ***"Belə bir körpü tikmək bizim bir azərbaycanlı kimi, şəxsən mənim on illərlə qəlbimdə olan arzu idi. Bu fikir mənim qəlbimdə on illərlə yaşayırdı. Mən özümü xoşbəxt hesab edirəm ki, gördüyüm bütün başqa işlərlə bərabər, o ümid, həsrət körpüsünün qısa müddətdə tikilməsinin, yaranmasının təşəbbüskarı oldum".***

Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin müasir səviyyəsi, Türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi istiqamətində görülən işlər şərh edilərkən Sədərək-Dilucu körpüsünün əhəmiyyəti xüsusi vurğulanır. Çünki Sədərək-Dilucu körpüsü Azərbaycan-Türkiyə əlaqələrinin inkişafının başlanğıcı olmuşdur. Ötən dövrdə qardaş ölkənin yaxın vilayətləri ilə muxtar respublika arasında iqtisadi-ticarət və humanitar əlaqələrin inkişafı davamlı xarakter almışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2010-cu il 26-29 aprel tarixlərində Türkiyə Respublikasına rəsmi səfəri Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Respublikası arasındakı münasibətlərin inkişafı baxımından xüsusi mərhələ olmuşdur. Bu gün Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasında bütün sahələrdə mövcud olan qarşılıqlı əlaqələr dinamik şəkildə inkişaf edir.

Naxçıvanın Türk dünyasının birlik və həmrəyliyində də xüsusi yeri olmuşdur. 2009-cu ildə Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə Görüşü Naxçıvanda keçirilmişdir.

2020-ci il fevral ayının 25-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın Azərbaycana səfəri və həmin gün Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclası təkcə Azərbaycan və Türkiyə üçün deyil, ümumiyyətlə, regionun gələcək inkişafı baxımından əhəmiyyətli idi. İclasda Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmir yolu nəqliyyat xəttinin və İğdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə imzalanan sənədlər bir sıra mühüm iqtisadi və siyasi tərəfləri ilə yanaşı, Naxçıvanın geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından da böyük əhəmiyyət kəsb edir.

Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin bir çox istiqamətlər üzrə uğurla inkişaf etdirilməsi bu günün reallığıdır. Xüsusilə iqtisadi-ticarət, təhsil, səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Naxçıvan Muxtar Respublikasında iqtisadi inkişaf sürətləndikcə xarici ticarət əməliyyatlarında da ixrac meyillərinin artması, Türkiyə hökumətinin qəbul etdiyi tənzimləmə qərarına görə Naxçıvan Muxtar Respublikasındakı istehsal müəssisələrinin Türkiyəyə məhsul ixracına güzəştlər tətbiq olunması və muxtar respublikaya sərbəst ticarət imkanının verilməsi isə ikitərəfli münasibətlərin uğurlu inkişafının nəticəsidir. Qarşılıqlı münasibətlərdə başlıca sahələrdən birini də elm və təhsil təşkil edir. Bu gün muxtar respublikanın başda Naxçıvan Dövlət Universiteti olmaqla bütün ali təhsil müəssisələri ilə Türkiyənin öncül universitetləri arasında sıx elmi əməkdaşlıq əlaqələri yaradılıb və təcrübə mübadilələri həyata keçirilir. Ordu quruculuğu sahəsindəki əməkdaşlığın da ilbəil genişləndirilməsi, artıq ənənə halını alan birgə təlimlər uğurlu hərbi əməkdaşlığın nümunəsidir.

Bu da xüsusi vurğulanmalıdır ki, muxtar respublikanın sürətli sosial-iqtisadi inkişaf dinamikası, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq Naxçıvana marağı artırır, Türkiyə ilə qarşılıqlı əlaqələr durmadan inkişaf edir. Artıq "Ümid" körpüsünün davamı olaraq Naxçıvanla Türkiyə arasında hava nəqliyyatının fəaliyyət göstərməsi və Bakı-Tbilisi-Qars-Naxçıvan dəmir yolu xəttinin inşası blokada vəziyyətində yaşayan Naxçıvanın qardaş ölkə ilə əlaqələrindəki tarixi rolunun bərpasına hesablanmış məqsədyönlü addımlardır.

2021-ci il iyunun 15-də Şuşa şəhərində Azərbaycan və Türkiyə arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsinin imzalanması Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasındakı əlaqələrin bir çox istiqamətlər üzrə daha geniş aspektdə uğurlu inkişafına hesablanıb.

Türkiyə ilə Naxçıvan arasında digər sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl işlər aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Məhz bunun nəticəsidir ki, gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Hazırda hər iki tərəfdən gömrük infrastrukturunun modernləşdirilməsi istiqamətində görülən işlər qarşılıqlı münasibətlərə verilən əhəmiyyətin ifadəsidir.

"Ümid" körpüsünün istifadəyə verilməsi Türkiyə-Azərbaycan, Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində taleyüklü addım olmuşdur. Bu körpü təkcə Türkiyə ilə Azərbaycanı yox, eyni zamanda Türk dünyasını birləşdirən körpü kimi mühüm əhəmiyyətə malikdir. Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilən tədbirlərin böyük tarixi əhəmiyyətə malik olmasına diqqəti çəkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir. Fəaliyyət göstərdiyi dövrlərdə Sədərək-Dilucu körpüsü bizi bir-birimizə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir".***

Vətən müharibəsində qazanılmış qələbə və regionda kommunikasiyaların açılması Naxçıvanı Azərbaycana, Azərbaycanı isə Türk dünyasına birləşdirəcəkdir. Həyata keçirilməkdə olan Qars-Naxçıvan dəmir yolu layihəsi də Naxçıvanla Türkiyəni birləşdirəcək. Bütün bunlar isə qardaş Türkiyə ilə gediş-gəlişin daha da intensivləşdirilməsinə stimul olacaq. Növbəti mərhələdə bu dəmir yolunun Zəngəzur dəhlizi vasitəsilə Azərbaycanın qərb bölgələri ilə birləşdirilməsi Naxçıvanın inkişafında daha mühüm rol oynayacaq. Ölkə Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***"Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı bizim qədim torpağımız olan Qərbi Zəngəzurla, ondan sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək bizim növbəti tarixi nailiyyətimiz olacaq".***

**"Şərq qapısı"**

## Vətən müharibəsi iştirakçılarına medallar təqdim olunub



Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə ölkəmizin ərazi bütövlüyü uğrunda aparılmış döyüş əməliyyatlarında igidlik və şücaət göstərmiş hərbi qulluqçular müxtəlif medallarla təltif ediliblər. Təltif olunanlar arasında naxçıvanlılar da az deyil. Naxçıvan Şəhər İcra Hakimiyyətində həmin medalların və onların vəsiqələrinin Vətən müharibəsi iştirakçılarına təqdim edilməsi ilə bağlı növbəti tədbir keçirilib.

Əvvəlcə ölkəmizin ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Şəhər İcra Hakimiyyətinin başçısı Mirsənani Seyidov çıxış edərək bildirib ki, bu gün ölkəmizdə olduğu kimi, Naxçıvan Muxtar Respublikasında da ordu quruculuğu sahəsində işlər uğurla həyata keçirilir. Son illər muxtar respublikanın etibarlı müdafiə təminatı ilə bağlı Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən həyata keçirilən mühüm tədbirlər şəxsi heyətə mənəvi-psixoloji dəstək verməklə yanaşı, onlarda vətənpərvərlik hisslərinin daha da güclənməsinə səbəb olub.

Qeyd edilib ki, ölkəmizdə ordu quruculuğu sahəsində görülən işlərin nəticəsidir ki, Vətən müharibəsi qələbə ilə başa çatdı. Müharibədə iştirak edən, qazi və ya şəhid olan qəhrəmanların sırasında Naxçıvanın mərd oğulları da az deyil. Naxçıvan şəhərindən olan zabit, gizir və əsgərlərimiz də bu savaşda böyük qəhrəmanlıqlar göstəriblər. Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamları ilə Vətən müharibəsi iştirakçıları – leytenant Hüseyn Məmmədov “Suqovuşanın azad olunmasına görə”, əsgər Elçin Rzayev və əsgər Azər Sadıxov isə “Qubadlının azad olunmasına görə” medalı ilə təltif ediliblər.

Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Naxçıvan Şəhər İdarəsinin rəisi, polkovnik-leytenant Anar Aqilov çıxışında qeyd edib ki, Vətən müharibəsində Silahlı Qüvvələrimizin üç minə yaxın hərbi qulluqçusu şəhidlik zirvəsinə yüksəlib, min nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirib. Vətənin müdafiəsi uğrunda canlarından keçmiş şəhidlərimizin 15-i isə şəhər qeydiyyatında olub.

Sonra medallar təqdim edilib.

Vətən müharibəsi iştirakçıları göstərilən diqqət və qayğıya görə dövlətimizə minnətdarlıqlarını bildiriblər.

✍ **Nail ƏSGƏROV**

*1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Sədərək Rayon İcra Hakimiyyəti ilə birgə tədbir keçirilmişdir.*

## 1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə tədbir keçirilmişdir



Tədbirdə Sədərək Rayon İcra Hakimiyyətinin başçısı Mahirə Adnayeva çıxış edərək rayonda uşaqlara göstərilən dövlət qayğısı haqqında ətraflı danışmışdır. Bildirmişdir ki, Sədərək Rayon İcra Hakimiyyətində mövcud olan Yetkinlik Yaşına Çatmayanların İşləri və Hüquqlarının Müdafiəsi üzrə yaradılmış komissiyası və İcra Hakimiyyəti yanında Qəyyumluq və Himayə komissiyası uşaqların sağlam və hərtərəfli böyüməsi üçün lazımi tədbirlər həyata keçirməyə çalışmışlar.

Son illər xüsusi qayğıya ehtiyacı olan, o cümlədən sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası da diqqət mərkəzində saxlanılır. Mahirə Adnayeva məlumat vermişdir ki, rayon məktəbliləri mədəniyyət, incəsənət, elm, idman və digər sahələr üzrə muxtar respublika, ölkə və beynəlxalq səviyyəli yarışların iştirakçısı olmuş, uğurlu nəticələr əldə etmişlər. Həmçinin Sədərək rayonunun məktəbliləri bir sıra müsabiqə və yarışlarda iştirak edərək həmin tədbirlərdə yer tutmuşlar.

Bildirilmişdir ki, Sədərək rayonunda da uşaqların istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtlarının düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştirakını təmin etmək məqsədilə də mühüm tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidova muxtar respublikada həyata keçirilən dövlət uşaq siyasəti haqqında ətraflı məlumat verərək bildirmişdir ki, muxtar respublikada uşaqlar dövlət qayğısı ilə təmin edilir, onların təhsili, sağlamlıqlarının qorunması, istedadlarının üzə çıxarılması, intellektual və mənəvi inkişafı, asudə vaxtının və tərbiyəsinin düzgün təşkili, cəmiyyətin ictimai-mədəni həyatındakı iştiraklarını təmin etmək məqsədilə mühüm tədbirlər həyata keçirilir. Qeyd olunmuşdur ki, hazırda muxtar respublika əhalisinin 165 min 740 nəfəri və ya 36 faizi uşaqlardır ki, onların da 55-i şəhid, 65-i hər iki valideynini itirmiş və valideyn himayəsindən məhrum olmuş, 1909-u sağlamlıq imkanları məhdud uşaqdır.

Muxtar respublikada uşaqların yaxşı təhsil almaları, sağlamlıqlarının qorunması, asudə vaxtlarının da səmərəli təşkili, fiziki cəhətdən sağlam böyüməsi, uşaqların idmana cəlbi, onlara sağlam həyat tərzinin aşılanması da diqqət mərkəzində saxlanılır.

Çıxış edənlər muxtar respublikada uşaqlara göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbova dərin minnətdarlıqlarını bildirmişlər.

Sədərək rayonu üzrə təhsil sahəsində ən yüksək göstəriciyə nail olan Sədərək rayon 1 nömrəli tam orta məktəbin şagirdi Aytən Ələkbərova uşaqlara göstərilən yüksək diqqət və qayğıya görə minnətdarlıq etmişdir.

Sonra tədbirdə Sədərək rayonu üzrə 2021-2022-ci tədris ilində müxtəlif sahələrdə nailiyyətlər qazanan uşaqlar təşkilatçılar tərəfindən fəxri fərman və hədiyyələrlə təltif olunmuşlar.

Tədbir bədii hissə ilə davam etmiş, sonda Sədərək Rayon Mədəniyyət Sarayının foyesində istedadlı uşaqların əl işlərinin sərgisinə baxış olmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Estafet*

## Vətən üçün yaşayan gənclik



Mən bir gəncəm, Vətənim kimi... Sərt ayazlı qışdan çıxıb yorulmayan, günəşli günlərə can atan Vətənim kimi…

Mən ata-babalarımdan geri qalanam. 1918-ci ildə azadlığın qoynuna sığınmış Azərbaycanın övladıyam. Azadlığı 23 ay içində əlindən alınan, 71 il sonra çətinliklərə sinə gərib yenidən dirçələn Vətənin yetirməsiyəm... Mübarizin, Xudayarın, Cəbrayılın sahib olduğu əsalətli qanı damarlarında daşıyan gəncəm. Onlar ki bu torpağı qanı ilə sulayanlardır. Onlar torpaq oldu, onlar artıq Vətəndir və mən ölmədən Vətən olan gənclik istəyirəm. Əsas məsələ isə yaşamaqdadır. Torpağı qanla da sulaya bilərik. Amma biz həmin torpaqlardan yetişən bir ümid ağacı olaq deyə, onlar girmədilərmi məzara?

Vətən Günəşdən yorulanda ayağını yerə basıb torpağın sərinliyini götürdüyün yerdir. Vətən sənin bir parçan, sənə, millətinə aid olan can deməkdir. Bu Vətən torpağı bu günə gəlmək üçün çox mürəkkəb yollardan keçib. Bütün düşmənlər bir araya gəlib əcdadlarımızı məhv etmək, ətirli torpağımızı ələ keçirmək istəyirdilər. Dilimizi, dinimizi məhv etmək, mədəniyyətimizi korlamaq istəyirdilər. Millətimiz isə bu xəyanətə göz yummayıb, ölkə çətin vəziyyətdə olanda milli birlik və həmrəylik içində necə davranacağını bilirdi. Bu müqəddəs, vətənpərvərlik qoxuyan torpaqlar düşmənə verilməyib, verilməyəcək də. Bizim bir canımız var və o can Vətən üçün fəda olsun. Bu ölkədə ölüm də olsa, bu Vətən üçün ay-ulduzun altında ölərik.

Düz 104 il bundan öncə, 1918-ci il 28 may tarixdə bu ölkənin qəhrəman ziyalıları tərəfindən Azərbaycan Xalq Cümhuriyyətinin əsası qoyuldu. Bu təqdirəlayiq, möhtəşəm hadisə, bəlkə də, çox sadə səslənə bilər. Lakin daim düşmənlərin savaş meydanı olan Azərbaycan üçün həmin mühitdə müstəqilliyə can atmaq çətin bir məsələ idi. Bu əziyyət dolu yolda öz üzərinə götürdüyü çətin tarixi vəzifəni şərəflə yerinə yetirən Azərbaycan Xalq Cümhuriyyəti bizim üçün böyük bir miras buraxdı. O miras ki illərin zəhməti ilə başa gəlmiş, igidlərin qanı bahasına qorunan bu dövlət idi. Müstəqil, demokratik respublika qurmağa can atan Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq varlığı boyunca sübut etdi ki, biz öz müqəddəratımızı təyin etmək gücünə qadirik və bizim öz milli prinsiplərimiz var.

Bu yola baş qoyan ziyalılar bu qısa zaman kəsiyində artıq ilk müstəqil dövlətimizi bir çox dünya ölkələrinə tanıtmağı bacarmışdı. Elə bu uzaqgörən addımın nəticəsində Azərbaycana qarşı edilən bütün hücumlardan, o cümlədən bolşevik hücumundan sonra Azərbaycan bir dövlət kimi dünya tarixindən silinmədi. Zaman keçdi, 71 il ötdü. Çox ağrıacıdan, çətinlikdən sonra 71 il öncə itirilmiş müstəqilliyimizi 1991-ci ildə yenidən dirçəldi. 23 aylıq körpənin atdığı ilk addımlar, əlbəttə, büdrəyəcəkdi, nisbətən zəif olacaqdı. Lakin 71 ildən sonra zəhməli, qərarlı addımlar atan müstəqil respublika olmağı bacaran Azərbaycan bütün çətinliklərdən güc qazanmışdı. Artıq qaranlıq günlər geridə qalmışdı. Bu, bir xalqın dəfələrlə oda atılması, lakin yenidən küllərindən canlanması demək idi. Nə xoş ki bu cür əzmli bir xalqın nümayəndəsi, gələcəyinin təminatıyıq.

***Biz də artıq Vətənik, Vətən üçün yaşamalıyıq. Elə bir gənclik olaq ki, gücümüzü torpaqdan alaq. Elə bir gənclik olaq ki, par-par parıldayaq qaranlıq gecələrdə, ulduz misallı sən, ey gənc, yorulma... Sən gələcəksən, dünya sənin əlindədir, döndürsən tərsinə dönər. Coşqun bir dəniz kimi, aş, daş. Bir sözlə, Vətən kimi ol. Vətən kimi azad, fədakar və iradəli...***

***Aysel NURİYEVA***
***Naxçıvan Dövlət Universitetinin Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## Naxçıvan atletindən ardıcıl üçüncü nailiyyət

*Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının stadionunda Əməkdar məşqçi Əfqan Səfərovun xatirəsinə həsr olunmuş atletika üzrə 25-ci beynəlxalq turnir keçirilib.*



26-27 may tarixlərini əhatə edən yarışa Azərbaycan, Gürcüstan, İran və Hindistandan olan atletlər qatılıb. Naxçıvan Atletika Federasiyasının idmançısı Əmrah Nağıyev 1500 metr məsafəyə qaçış növündə 4 dəqiqə 30.06 saniyəlik göstərici ilə finiş xəttinə rəqiblərindən öndə çatıb və həmin məsafə üzrə qızıl medala layiq görülüb. Bundan əlavə, idmançımız 3000 metr məsafədə (9:26.95) gümüş medal qazanıb.

Xatırladaq ki, bu atletimizin may ayı ərzində qazandığı üçüncü uğurlu nəticədir. Atletimiz “Bakı Marafonu-2022”-də (21 kilometr) 2399 idmançı arasında 19-cu, “Parlaq gələcək naminə qaç!” marafonunda isə 3 kilometr məsafə üzrə qalib olub.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

## Minifutbol turniri başa çatıb

*Yeni Azərbaycan Partiyasının üzvləri arasında ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş muxtar respublika turniri başa çatıb.*

18-35 yaşlı partiya üzvlərini əhatə edən “Heydər Əliyev kuboku” turnirinin görüşləri Uzunoba Təlim-Məşq İdman Kompleksinin üstüörtülü minifutbol meydançasında keçirilib. İki gün davam edən mübarizədə mükafatçılar olimpiya sisteminə əsasən müəyyən edilib.

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Naxçıvan Futbol Federasiyasının birgə təşkil etdiyi turnirdə 8 komanda mübarizə aparıb. Turnirin üçüncü yer uğrunda keçirilən görüşündə “Şərur” komandası “Babək” komandası ilə qarşılaşıb və qalib gəlib. Final oyununda isə “Culfa” komandası “Şahbuz” komandasını məğlub etməklə kuboku baş üzərinə qaldırıb.



Sonda ilk üç pillədə qərarlaşan komandaların üzvləri diplomla təltif ediliblər. Turnirin əsas mükafatı olan kubok isə “Culfa” komandasına təqdim olunub.

Turniri keçirməkdə məqsəd ümummilli lider Heydər Əliyevin əziz xatirəsinin yad edilməsi, gənc partiya üzvlərinin asudə vaxtının səmərəli təşkili və minifutbola olan marağın artırılmasından ibarət olub.

✍ **Ceyhun MƏMMƏDOV**

### *İtmişdir*

“Nəqşicahan Satınalma” Məhdud Məsuliyyətli Cəmiyyətinə məxsus olan 30 avqust 2021-ci il tarixli 324/1 qeydiyyat nömrəli xüsusi əczaçılıq, 5 oktyabr 2021-ci il tarixli 326/1 qeydiyyat nömrəli narkotik və psixotrop dərman preparatlarının topdansatışı üçün xüsusi lisenziyalar yanaraq yararsız hala düşdüyündən etibarsız sayılır.

***

Allahverdiyeva Fərqanə Əli qızının adına olan 71 BD 712 nömrəli avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

İmaməliyeva (Əliyeva) Gülçin Qadir qızının adına Naxçıvan Tibb Kolleci tərəfindən verilmiş 1214 seriya nömrəli tələbə bileti itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 469